# PETER RAMUS'S PHILOSOPHICAL REFORMS: THE SIMPLIFICATION OF LOGIC AND THE SYSTEMATIZATION OF METHODOLOGY

**Jamila Abdullazade**[1]
**Aladdin Malikov**[2]

**UDC:** 1(091):161/162
**LBC:** 87.3:87.4
**HoS:** 113
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.101-112

**Keywords:**

Renaissance period, Humanism, Logic, Aristotelian logic, Methodized, Peter Ramus

## ABSTRACT

The article analyses the philosophical and reformist views of Peter Ramus, a representative of the Renaissance period. He, as one of the prominent reformers of the Renaissance period, left a profound legacy behind. The article notes that Ramus significantly influenced the development of scientific thought through the educational and philosophical reforms he implemented. His contributions to the effective advancement of education earned him considerable renown. The article emphasizes his important role in bringing systematicity and order to education. The primary aim of his reforms was to demonstrate efficient methods for mastering knowledge. His textbooks on dialectics, rhetoric, and grammar, co-authored with Omar Talon, are emphasized as having reshaped the Renaissance educational system. His interest in mathematics and the natural sciences reflected his belief that thinking should possess an organized structure. Ramus's views on language underpinned the relationship between thought and expression. In addition, the article discusses his substantial critiques of Aristotelian philosophy, particularly scholastic rigidity, and analyzes the reasons behind these criticism in detail. His ideas were not limited to France but influenced the development of modern teaching methods across various European countries, including England and Germany. Ramus's reforms also paved the way for the thinking pf philosophers such as Francis Bacon, René Descartes, and Alexander Melville. The article examines Peter Ramus's life, the essence of humanism, his literary activity, his stance against Aristotelian philosophy, and his innovations in method and logic within the intellectual context of the Renaissance, exploring his role in European pedagogy and the impact of his philosophical contributions.

[1] Master's student, Specialization in History of Philosophy, Faculty of Social Sciences and Psychology, Baku State University; Baku, Azerbaijan (corresponding author)
E-mail: jamila.abdullazadee@gmail.com
https://orcid.org/0009-0007-5639-8512
[2] Doctor of Philosophy in Philosophy, Associate Professor,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**To cite this article:** Abdullazade, J., & Malikov, A. [2025]. Peter Ramus's Philosophical Reforms: The Simplification of Logic and the Systematization of Methodology. *History of Science journal*, *6*(5), pp.101-112.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.101-112

***Article history:***
*Received: 01.10.2025*
*Revised: 03.11.2025*
*Accepted: 01.12.2025*
*Published: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# PETER RAMUSUN FƏLSƏFİ İSLAHATLARI: MƏNTİQİN SADƏLƏŞDİRİLMƏSİ VƏ METODOLOJİ SİSTEMLƏŞDİRMƏ

**Cəmilə Abdullazadə**[1]
**Ələddin Məlikov**[2]

**UOT:** 1(091):161/162
**KBT:** 87.3:87.4
**HoS:** 113
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.101-112

**Açar sözlər:**

İntibah dövrü,
Humanizm,
Məntiq,
Aristotel məntiqi,
Üsullaşdırma,
Peter Ramus

## ANNOTASİYA

Məqalə intibah dövrünün nümayəndəsi olan Peter Ramusun fəlsəfi və reformist baxışlarını təhlil edir. O, intibah dövrünün görkəmli islahatçılarından biri kimi fəaliyyət göstərərək özündən sonra dərin bir iz qoymuşdur. Məqalədə qeyd olunur ki, Ramus, həm pedaqogika, həm də fəlsəfə sahəsində aparmış olduğu islahatlarla elmi düşüncənin inkişafına mühüm təsir göstərmişdir. Onun təhsilin effektiv inkişafı ilə bağlı xidmətləri ona böyük şöhrət qazandırmışdır. Məqalədə vurğulanılır ki, təhsilə sistemlilik və nizamlılıq xüsusiyyətlərinin gətirilməsində önəmli rolu olmuşdur. Onun islahatlarının əsas məqsədi elmin mənimsənilməsinin səmərəli üsullarını göstərmək olmuşdur. Ömər Talonla birgə yazdığı dialektika, ritorika və qrammatika dərslikləri intibah dövrü təhsil sitemini yenidən formalaşdırdığı vurğulanır. Onun riyaziyyat və təbiət elmlərinə olan marağı da düşünmənin nizamlı struktura malik olmalı olduğu inancını əks etdirdiyi məqalədə öz əksini tapmışdır. Ramusun dil haqqında olan baxışları düşüncə ilə ifadə arasındakı əlaqəni əsaslandırırdı. Bu xidmətlərindən əlavə, məqalədə bəhs olunur ki, onun Aristotel fəlsəfəsinə, xüsusilə də sxolastik sərt görüşlərə əsaslı hücumları da olmuşdur və bunun səbəbləri ətraflı şəkildə təhlil olunur. Onun ideyaları Fransa ilə məhdudlaşmayıb, Avropanın müxtəlif ölkələrində, o cümlədən İngiltərə və Almaniyada müasir tədris metodlarının inkişafına təsir göstərmişdir. P.Ramusun islahatları Frensis Bekon, Rene Dekart və Aleksandr Melville kimi filosofların düşüncəsində də yol açmışdır. Məqalədə Peter Ramusun həyatı, humanizmin mahiyyəti, Ramusun yazıçılıq fəaliyyəti, Aristotel fəlsəfəsinə qarşı mövqeyi, metod və məntiq yenilikləri intibah dövrünün intellektual mühiti fonunda təhlil olunaraq, onun Avropada pedaqogikada rolu və fəlsəfədə yaratmış olduğu yeniliklərin təsirləri tədqiq olunur.

[1] Magistrant, Fəlsəfə tarixi ixtisası, Sosial Elmlər və Psixologiya Fakültəsi, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: jamila.abdullazadee@gmail.com
https://orcid.org/0009-0007-5639-8512
[2] Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
“AcademyGate Publishing”-in elmi tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**Məqaləyə istinad:** Abdullazadə, C., & Məlikov, Ə. [2025]. Peter Ramusun Fəlsəfi İslahatları: Məntiqin Sadələşdirilməsi və Metodoloji Sistemləşdirmə. *History of Science jurnalı*, *6*(5), səh.101-112.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.101-112

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 01.10.2025*
*Yenidən baxılıb:03.11.2025*
*Təsdiqlənib: 01.12.2025*
*Dərc olunub: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ФИЛОСОФСКИЕ РЕФОРМЫ ПЕТРА РАМУСА: УПРОЩЕНИЕ ЛОГИКИ И МЕТОДОЛОГИЧЕСКАЯ СИСТЕМАТИЗАЦИЯ

**Джамиля Абдуллазаде**[1]
**Аладдин Маликов**[2]

**УДК:** 1(091):161/162
**ББК:** 87.3:87.4
**HoS:** 113
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.101-112

**Ключевые слова:**

Эпоха Возрождения, Гуманизм, Логика, Аристотелевская логика, Методизация, Петр Рамус

## АННОТАЦИЯ

В статье анализируются философские и реформаторские взгляды Петра Рамуса, представителя эпохи Возрождения. Как один из выдающихся реформаторов Возрождения, он оставил после себя глубокий след. В статье отмечается, что Рамус, благодаря проведённым им реформам как в педагогике, так и в философии, оказал значительное влияние на развитие научного мышления. Его заслуги в области эффективного развития образования принесли ему большую известность. В статье подчеркивается, что он сыграл важную роль в привнесении системности и упорядоченности в образование. Основная цель его реформ заключалась в том, чтобы показать эффективные методы усвоения науки. Отмечается, что учебники по диалектике, риторике и грамматике, написанные им совместно с Омером Талоном, заново формировали образовательную систему эпохи Возрождения. Статья также отражает его интерес к математике и естественным наукам, что выражало его убеждение, что мышление должно обладать упорядоченной структурой. Взгляды Рамуса на язык обосновывали связь между мыслью и выражением. В дополнение к этим заслугам, в статье говорится о том, что он также предпринял основательные атаки на аристотелевскую философию, особенно на строгие схоластические взгляды, и причины этого подробно анализируются. Его идеи не ограничивались Францией, а оказывали влияние на развитие современных методов преподавания в различных странах Европы, включая Англию и Германию. Реформы П. Рамуса также проложили путь в мышлении таких философов, как Фрэнсис Бэкон, Рене Декарт и Александр Мелвилл. В статье рассматриваются жизнь Петра Рамуса, сущность гуманизма, писательская деятельность Рамуса, его позиция против аристотелевской философии, нововведения в методе и логике на фоне интеллектуальной среды эпохи Возрождения, исследуется его роль в педагогике Европы и влияние созданных им философских нововведений.

[1] Магистрант, специальность «История философии», Факультет социальных наук и психологии, Бакинский государственный университет; Баку, Азербайджан (ответственный автор)
E-mail: jamila.abdullazadee@gmail.com
https://orcid.org/0009-0007-5639-8512
[2] Доктор философии по философии, доцент,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764

**Цитировать статью:** Абдуллазаде, Д., & Маликов, А. [2025]. Философские Реформы Петра Рамуса: упрощение логики и методологическая систематизация. *Журнал History of Science*, *6*(5), с.101-112.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.101-112

***История статьи:***
*Поступила: 01.10.2025*
*Переработана: 03.11.2025*
*Принята: 01.12.2025*
*Опубликована: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**1.Giriş**

Latınlaşdırılmış adı Peter Ramus (1515-1572) olan Pyer De La Ramée 1515-ci ildə Fransanın Pikardiya bölgəsində zadəgan ailəsində anadan olmuşdur. Lakin Burqundiyanın fəth olunması ailəsinin bütün həyatını dəyişmişdir. Bu fəth zamanı babası yaşadıqları torpaqları tərk etmək məcburiyyətində qalmış və kasıblıq şəraitində kömürçü kimi çalışmışdır. Atası fermaların birində çalışan fəhlə idi. Ramus hələ uşaq ikən atasını itirmişdi [Graves, 1912, s.1-3]. Fikrimizcə, Ramusun kasıb mühitdə yetişməsi onun düşüncəsindəki tənqidi və islahatçı ruhun formalaşmasına bilavasitə təsir göstərmiş ola bilər. Yəni, onun fəlsəfi inadkarlığının və mübarizə ruhunun kökünü məhz bu sosial təcrübələrdə axtarmaq olar. Ramusun, həyatının ilk illərində qarşılaşdığı çətinliklər onun yalnız intellektual deyil, həm də islahatçı xarakterinin formalaşmasında həlledici rol oynamışdır.

Müəllimləri onun dərketmə qabiliyyətinə və intellektual bacarıqlarına xüsusi diqqət yetirirdilər. Öz səyi nəticəsində qısa müddət ərzində müəllimlərindən əldə etmiş olduğu bilikləri qavraya bilmişdi. Amma bu biliklər onu qane etməmişdir. Bunun səbəbi təhsil sistemindəki nəzəriyyənin çoxluğu və praktikanın azlığı olmuşdur. O, biliyini artırmağı özünə məqsəd qoyur və buna nail olmaq üçün Parisə yollanır. Lakin yoxsulluq nəticəsində Ramus, orada həyatını qurub məqsədlərinə nail ola bilmir və bir sıra çətinliklərlə qarşılaşır. Bunun nəticəsində, iki dəfə geri qayıtmalı olur. Ramusun təhsilə dair narazılığı təkcə şəxsi çətinliklərdən qaynaqlanmırdı. O, ümumilikdə, mövcud tədris sisteminin struktur problemini də müşahidə etmişdir. Bir müddət sonra nəhayət, o, Navarra kollecində oxuyan varlı bir tələbənin köməkçisi olaraq işə başlayır. Bu fəaliyyəti ona arzuladığı elmi imkanları əldə etmə şansı qazandırır. O, səhər saatlarını ustadının yanında keçirir, gecələri isə öz dərsləri ilə məşğul olurdu. Onun karyerasının başlamasına səbəb olan hadisə 3 il yarım müddətində özünü həsr etdiyi dialektika kursu olmuşdur. Ramusun Aristotel düşüncəsinə və eləcə də, sxolastikaya hücumu bundan sonra başlayır. O, dialektikaya yüksək qiymət verirdi. Ancaq onun kolleclərdə tədrisinə ikrah hissi ilə yanaşırdı. Onu Aristoteldən uzaqlaşdıran əsas cəhət indiki dialektika metodunun tədrisinin praktik "sənət"də və real həyatda tətbiqinin qeyri-mümkünlüyü idi. Hətta o,"Dialektikada tədqiqatlar" adlı kitabında həmin dövrdə dəbdə olan, ancaq formal və faydasız təlimlərin ətraflı sxematik və tənqidi təsvirini vermişdir. Məhz bu baxışları onun Aristotel fəlsəfəsindən uzaqlaşmasına və yeni pedoqoji yanaşmalar formalaşdırmasına gətirib çıxarmışdır [Graves, 1912, s.19-21]. Gravesin təqdim etdiyi yanaşmada Ramusun Aristotelə mövqeyi bir qədər sərtləşdirilmiş şəkildə göstərilmişdir. Ramus Aristoteli deyil, Aristotel ənənəsinin sxolastik şərhini tənqid edirdi. Çünki bu şərh idrakı obyektiv gerçəklikdən ayırırdı. "Ramus üçün Aristotel Sokratik bir filosof idi" [7]. Ramusun tənqid etdiyi sadəcə Aristotelin təlimlərinin praktiki tətbiq imkanlarının məhdudluğu ilə bağlı olmuşdur. Beləliklə, Ramusun Aristotelin düşüncə tərzini tənqid etməsi onun tədris siteminə praktiklik və idrak mərkəzli yanaşma gətirməyə çalışması ilə nəticələnir.

1551-ci ildə artıq 36 yaşında şöhrətini artıraraq yeni vəzifələr icra etməyə başlayır. Həmin dövrdə mühafizəkarlar tərəfindən ona qarşı inatçı və kəskin bir əks mövqe olsa da, öz parlaq zəkası və islahatlarının dəyəri hesabına intellektual aləmin diqqət mərkəzində olmuşdur. Reformasiya dövrünün intellektual atmosferi ona düşüncə azadlığını genişləndirmək üçün əlverişli zəmin yaratmışdı. Onun ideyaları bir çox gənc alim və müəllim üçün ilham mənbəyinə çevrilmişdir [Graves, 1912, s.48]. Həqiqətən də, o, həm radikal, həm də ilhamverici bir fiqur kimi qiymətləndirilə bilər. Ramusun fərdiyyətçiliyini və yenilikçi ruhunu reformasiya hərəkatının ideoloji müstəvisində əsas təkanverici qüvvələrdən biri kimi dəyərləndirilməsi mümkündür. Beləliklə, Ramus, dövrünün ənənəvi akademik qaydalarına qarşı çıxan ilk mütəfəkkirlərdən biri olmuşdur. Onun fəaliyyəti reformasiya ideyalarının fəlsəfi təməlini möhkəmləndirməyə nail olmuşdur.

Ramus yaradıcılığı ilə son dərəcə mübahisəli şəxs olmuşdur. Onu tənqid edənlər və düşmən mövqedə duranlar qədər, onun tərəfdarı və ona dost olanlar da çox olmuşdur. Ölümü ilə bağlı mənbələr qeyd edir ki, Ramus Varfolomey hadisəsi zamanı öldürülür. Ümumilikdə o, dini səbəblərdən qurban gedən reformistlərdən biri kimi xatırlanır. Maraqlı fakt bundan ibarətdir ki, kral tərəfindən onun xilas edilməsi əmr edilsə də, buna itaət olunmur və cəsədi Sena çayına atılır [7]. Beləliklə də, Ramusun ölümü onun düşüncəsinin nə qədər siyasi-dini təsir yaratdığını bir daha ortaya qoyur.

Peter Ramusun həyatı haqqında məlumatlara öz əsərlərində yazmış olduğu bioqrafik qeydlərdən əlavə, 3 müasirinin məlumatlarından əldə edilmişdir. Həmin şəxslərdən olan T.Banosius və C.T. Freyqius sadəcə çox qısa müddət Ramusla əlaqədə olmuşlar. Digər müasiri olan Nikolas Nanselius isə Ramusun əvvəlcə tələbəsi olmuşdur. Daha sonra isə, onlar çox yaxın dost olmuşlar. Bu baxımdan, Nanseliusun Ramus haqqında yazmış olduğu məlumatlar özünün dolğunluğu və zənginliyi ilə seçilir [7].

**2.Humanizm anlayışının mahiyyəti**

Peter Ramusun yaradıcılığını aydın başa düşmək üçün onun yaşamış olduğu dövrün xüsusiyyətlərini nəzərdən keçirmək vacibdir. Bu baxımdan, XVII əsrdə Qərbi Avropada özünü büruzə verən, Fransada yeni çalar qazanan intibah dövrü ilə yanaşı əsasını təşkil edən humanizm anlayışının inkişafını nəzərdən keçirib təhlil etmək lazımdır.

Humanizm anlayışı müxtəlif mənalarda ifadə olunur. Həmin mənaların bir-birindən fərqləndirilməsi intibah dövründə ortaya çıxan və böyük nailiyyətlərə səbəb olan humanizm hərəkatının düzgün anlaşılmasında mühüm rol oynayır. Həmin mənalardan biri xristian humanizmidir ki, bu dini və əxlaqi prinsiplərlə əlaqəli idi. Zaman keçdikcə elmin təsirinin artması sekulyar humanizm anlayışının yaranmasına gətirib çıxarmışdır ki, bu da insanı, təcrübə əsasında formalaşan düşüncə kimi dəyərləndirmişdir. Qeyd etmək olar ki, mədəniyyət tarixinə baxdığımız zaman klassik humanizm anlayışı XIV əsrdə İtaliyada baş verən oyanış dövrünü ifadə edir. Klassik humanizm insanın intellektual və yaradıcı potensiala malik olmasına əsaslanırdı [Lamont, 1957, s.16-18]. Klassik humanizmə olan bu yanaşma ilə razılaşmaq olar, çünki Ramusun yaradıcılığında intibah dövrünün mahiyyəti özünü göstərir. Ramusun fəlsəfi baxışları da intellektual oyanışın insan ağlını mərkəzə çəkmə tendensiyasını əks etdirirdi. O, humanizmin yalnız nəzəri deyil, həm də tədris yönümünü inkişaf etdirməklə orta əsr və sxolastik düşüncəyə xarakterik olmayan əks fikir formalaşdırmışdı. “Heç bir başqa humanist orta əsr və sxolastik düşüncəyə bu qədər radikal şəkildə qarşı çıxmamışdı və prinsiplərini bu qədər ardıcıl şəkildə həyata keçirməmişdi” [Graves, 1912, s.205]. Həmin dövrdə mütəfəkkirlərin məqsədlərindən biri yunan və latın klassikasını dərindən öyrənməklə onları yenidən kəşf etməyə yönəlmişdir [Lamont, 1957, s.16-18]. Çünki intibah humanizminin əsas məqsədi antik mədəni irsi sadəcə öyrənmək deyil, onu müasir idrak tələblərinə uyğun şəkildə yenidən dəyərləndirmək idi. Fikrimizcə, bu, Ramusun fəlsəfi istiqamətində öz əksini tapır. Çünki o, Aristotel ənənəsini təkrarlamaqla kifayətlənməyib, onun fəlsəfəsini rasional düşüncə metoduna tabe etməyə çalışmışdır. Bu mənada Lamontun vurğuladığı “yenidən kəşf” prosesi Ramusda “yenidən qurma” formasında təzahür etmişdir.

Beləliklə, mütəfəkkirlər bu dövrün ruhunu fəlsəfi sistemə çevirərək intibahın nəzəri mahiyyətini praktik istiqamətə yönəltmişdir. Çünki onların fəlsəfəsinin formalaşmasında humanizmin əsas prinsiplərindən olan insan azadlığı, bilikdə rasional yanaşma və təbiiliyə dönüş (redak. Antik dövrün dəyərlərinə) ideyası mühüm rol oynayaraq geniş ərazilərə yayılmışdır.

Qısa bir müddət ərzində intibah dövrü sərhədləri aşaraq Alp dağlarından şimala doğru yayılaraq orada öz təsirini gücləndirir. XVI əsrlərdən başlayaraq isə humanizm öz təsirini İtaliyadan kənarda göstərməyə başlamışdır. Humanizmin təsirlərinin sadəcə fəlsəfənin inkişafında göstərdiyini qeyd etmək doğru deyildir. Müxtəlif elm sahələri, o cümlədən,

incəsənət də geniş şəkildə bu hərəkatın təsirlərinə məruz qalmışdır. Nəhayət, XVI əsrdə humanizm Fransaya doğru yayılmışdır [Lamont, 1957, s.32-34]. Hesab edirik ki, Ramusun fəaliyyətində mövcud olan çoxşahəliliyi humanizmin təsir dairəsinin geniş olması ilə izah etmək mümkündür. Çünki o, yalnız məntiq sahəsində deyil, həm də tədrisin strukturunda bədii və elmi düşüncəni birləşdirməyə çalışmışdır. Yəni, Lamontun qeyd etdiyi kimi humanizm bütün sahələrdə ifadə olunmuşşa, bu ideyanı Ramus konkret praktik sistemə çevirmişdir.

Beləliklə, intibah dövründə insanın intellektual və mənəvi potensialına olan inam artmış, təhsilin və bilik əldə etmənin məqsədini dəyişdirmişdir. Buradan belə bir nəticə çıxır ki, intibah dövrü insanı mərkəzə çəkərək onun idrak azadlığını bəşəri tərəqqinin təməl prinsipi kimi müəyyənləşdirmişdir. Qeyd edə bilərik ki, humanizm sadəcə intellektual xarakter daşıması ilə yaddaşlarda qalmamışdır. Çünki şimal ərazilərə yayılarkən bu hərəkat sosial-əxlaqi məna qazanmışdır.

İntibah dövrünün mənşəyi İtaliya olsa da, bu hərəkat Fransada daha geniş yayılmış və təsir baxımından fərqli bir istiqamət qazanmışdır. Çünki artıq burada fəaliyyət göstərən mütəfəkkirlər diqqəti şəxsi inkişaf və fərdi nailiyyətlərdən daha çox sosial və əxlaqi məsələlərə yönəltmişdilər. Buradakı mütəfəkkirlərin əsas məqsədlərindən biri cəmiyyəti əxlaqi və dini baxımdan yüksək səviyyəyə qaldırmaq idi. Erasmus Rotterdamlı, Filip Melanxton, Tomas Mor, Con Kolet və başqaları antik mədəni irsə qayıdaraq dini və əxlaqi islahatlara yönəlmiş, bilik və mənəviyyatı birləşdirən yeni humanist ideal yaratmağa çalışmışlar. Çünki elmin və təhsilin inkişafı estetik, intellektual və əlçatanlıq baxımdan geridə idi. Bütün bu intellektual və əxlaqi axtarışlar humanizmin istiqamətini genişləndirərək onu dini mənbələrə müraciəti zəruri edən yeni bir mərhələyə çıxardı.

Bu oyanışın əsas fəaliyyət məqsədlərindən biri də Müqəddəs Yazılara müraciət olmuşdur. Bunu etməklərində məqsəd onlardan da faydalanaraq teoloji mahiyyətin əldə edilməsi idi. Buradakı mütəfəkkirlər bunun sayəsində, Əhti-Cədidin orjinalını öyrənməklə kilsənin doktrinalarından və ənənələrindən uzaqlaşaraq xristianlığın mahiyyətinini dərk etməyə çalışırdılar. Onların bu səyləri nəticəsində xristianlığın mahiyyəti üzərində yeni düşüncə formalaşmış və reformasiya hərəkatının ideoloji bazasının yaranmasına səbəbiyyət vermişdir [Graves, 1912 s.1-6]. Reformasiya ilə humanizm arasında ideoloji bağlılığın vurğulanması son dərəcə önəmlidir. Fikrimizcə, bu yanaşma Ramusun mövqeyi ilə səsləşir, çünki o, dini məhdudiyyətlərdən uzaq rasional-idrak sistemini müdafiə etməklə həm humanist, həm də reformist düşüncə xəttini birləşdirmişdir. Bu baxımdan, Gravesin vurğuladığı dini-əxlaqi yön Ramusun tədris islahatlarında "iman" və "bilik" arasında tarazlığı təmin etmək cəhdində öz əksini tapır. Beləliklə, şimalda öz təsirini gücləndirməyə davam edən humanizm hərəkatı dini və əxlaqi məqsədləri elmi tədqiqat və biliklə birləşdirərək zəngin və əsaslı yeni bir sistemin formalaşmasına zəmin yaratmışdır. Bu sistemdə əsas diqqət insana yönəldilmişdi.

Humanistlər inanırdılar ki, insan bütün sorğuların və axtarışların mərkəzində durmalıdır. Bu sistemin əsasında, əxlaq və incəsənətin harmoniyasından ibarət bilik sistemi durmalı idi. Bu hədəfin həyata keçirilməsində bir sıra görkəmli filosof və mütəfəkkirlərin rolu olmuşdur. Onlardan biri də Peter (Petrus) Ramus idi [Raghuvashi & Chand, 2024, s.4094]. Qeyd etmək olar ki, Peter Ramus insan ağlının azadlığı və biliklərin sistemləşdirilməsi ideyasını reallaşdırmağa çalışmışdır. Beləliklə, onun fəlsəfəsində insan yalnız biliyi qəbul edən deyil, həm də bilik yaradan subyekt şəklində ifadə olunur. "*Mənim daimi məqsədim azad incəsənətlərin yolundakı tikanları və qayaları, bütün intellektual maneələri aradan qaldırmaq, biliyin praktik tətbiqinə daha asan çatmaq üçün bu yolu düz və hamar etmək idi*" [Graves, 1912, s.108-109].

**3.Peter Ramusun yazıçı olaraq fəaliyyəti**

Peter Ramus yaradıcılığının böyük bir qismini müəllim və yazıçı olaraq keçirmişdir. Onun yaradıcılığında daha yüksək bir səviyyəyə qalxmasına səbəb müəllimlik fəaliyyəti ilə bağlı yazdığı əsərləri olmuşdur. Onun dərslikləri ya təhsil sitemi ilə bağlı olmuşdur, ya da sənətdə çətinliklərdən qurtulmaq ilə bağlı yazmış olduğu mühazirələr silsiləsidir ki, onlar da daha sonra çap olunmuşdur [Ong, 2004, s.29]. Burada Ramusun əsərlərinin pedaqoji istiqaməti vurğulanır. Fikrimizcə, Ramus yazıçılıq fəaliyyətindən yalnız elmi məqsədlər üçün deyil, həm də təhsil sistemində praktiki dəyişikliklər aparmaq üçün istifadə etmişdir. Bunun səbəbi isə, elmin məqsədini yalnız bilik toplamaq yox, həm də bu bilikləri öyrənənlər üçün anlaşıqlı, praktik və tətbiq edilə bilən hala gətirməkdə görməsi idi. Bu praktikliyin əldə olunması ilə bağlı məqsədi Ramusun yaradıcılığının zamanla müəyyən mərhələlərdə formalaşmasına səbəb olmuşdur. Bu mərhələləri Ong dörd əsas inkişaf xətti kimi təsnif edir.

Ong qeyd edir ki, Ramusun didaktik-ədəbi karyerasını 4 mərhələyə ayırmaq olar. Birinci mərhələ, onun klassik şərhçi olması ilə əlaqədardır. Bu mərhələ də nə qədər ki, o, özünü Platonun idealist dünyagörüşünə rəğbət bəslədiyi üçün Platonçu hesab etsə də, əslində, tədris fəaliyyətində Siseronun praktik ritorikasına üstünlük verirdi. "*Nansel qeyd edirdi ki, Ramusun Siseron haqqında yazmış olduğu şərhlər çap olunsa da, 10-dan çox onun nitqləri ilə bağlı yazmış olduğu şərhlər olmuşdur ki, onlar heç vaxt çap olunmamışdır*" [Ong, 2004, s.30]. Bu, onun fəlsəfi idealizmlə pedaqoji realizmi birləşdirmək cəhdinin göstəricisi hesab oluna bilər. Ramusun Aristotelin ritorik təliminə etmiş olduğu hücumu Siseronun ritorik traktatları ilə Kvintilianın natiqlik üzrə təliminə də etmişdir. Səbəb isə onların da ritorik sistemlərində məntiqi sərtlik və formallıq görməsi olmuşdur. Onun məqsədi bunların əvəzinə yeni natiqlik üzrə təlim yaratmaq idi. Hansı ki, həmin dövrdə Ömər Talonun (1510-1562) adı ilə "*Dialektik təlim*" əsəri Ramusun birgə əməkdaşlığı ilə yazılmışdır [Ong, 2004, s.29-30].

İkinci mərhələ, 1555 və 1556-cı illəri əhatə edən dialektika ilə başlayan, dialektik-metodik mərhələ adını almışdır. 1546-cı ildə Ramusun "*Dialektik təlim*" əsəri Talonun adı ilə çap olunmuşdur. Amma 1555-ci ildən etibarən, Ramus başda öz dialektik təlimi olmaqla, hər şeyi ciddi şəkildə "üsullaşdırmaq"a başlamışdı. Çünki ona görə, "üsullaşdırma" biliklərin strukturlaşdırılmış, sxematik və mərhələli şəkildə təqdim edilməsini təmin edən bir vasitə idi. Daha sonra Peter Ramus latın, yunan və fransız qrammatikasını əks etdirən qrammatika sənətini yaradır. Bu period, onun Aristotelin fizikasına hücum məqsədli yazmış olduğu və metafizika haqqında yazmış olduğu ideyaları hədəfləyən "*Fizika haqqında mühazirlər*"i ilə başa çatmışdır. Buna səbəb, Aristotelin fizikasını empirik əsasdan uzaq, teleoloji düşüncəyə əsaslanan və avtoritar tədris forması yaratdığını düşünməsi olmuşdur [Ong, 2004, s.30-31]. Lakin Ramusun sistemi yalnız dil və dialektika ilə məhdudlaşmadı. O, strukturlaşdırma prinsipini riyaziyyata da tətbiq etməyə çalışdı və bu, yaradıcılığının növbəti mərhələsini formalaşdırdı.

Üçüncü mərhələ onun dialektikasının riyaziyyata tətbiqini əhatə edən dövrlə xarakterizə olunur. Belə ki, o 1545-ci ildə Evklidin "*Elementlər*" əsərini tərcümə edərək riyaziyyatın struktural düşüncə sisteminə uyğunlaşdırılmasını təklif etmişdir. Ramus hesab edirdi ki, riyazi struktural düşüncə ardıcıllıq və dəqiqliyə əsaslanmalıdır. Bu mərhələdə artıq o, cəbr, həndəsə, hesab və mühazirələr toplusu ilə birlikdə çətinlikləri aradan qaldırmağa yönəlmişdi. Bunu riyaziyyat sayəsində həyata keçirməyin mümkün olduğunu anlayan Ramus özünü xoşbəxt hiss edirdi [Ong, 2004, s.31-32]. Ramusun riyaziyyatı belə bir metodoliji çərçivəyə salması onun düşüncəsinin ölümündən sonra da davam etdirilməsinə şərait yaratdı və bu, yaradıcılığının dördüncü mərhələsini meydana gətirdi. "*Onun özü riyaziyyatçı kimi heç bir əhəmiyyət daşımırdı. Lakin mövzuya maraq oyadaraq, hesablana bilən dünya üçün metod anlayışına mənəvi vətən olmuşdur*" [Ong, 2004, s.32].

Dördüncü və son mərhələ isə artıq onun ölümündən sonra davam edən, ideyalarının tələbələri və davamçıları tərəfindən inkişaf etdirildiyi dövrdür. Bu dövrdə ön sözü Teofilus Banosiusa məxsus olan və Filip Sidneyin izahlarına əsaslanan 4 kitabda "*Xristianlıq dininə şərhlər*" əsəri çap olunur. Bu əsərdə Ramusun elmi və dini biliklərin qarşılıqlı əlaqəsinə olan münasibətindən bəhs edilmişdir [Ong, 2004, s.32-33]. Beləliklə, o, dini biliklərin rasionallıqla birləşdirilməsini xristian humanizminin təməl prinsipi kimi qəbul etmişdir.

Ramusun yaradıcılığının bu şəkildə bölgüsü metodoloji cəhətdən uğurludur. Lakin fikrimizcə, bu bölgü Ramusun həyatında baş verən ictimai və dini dəyişikliklərin təsirini bir qədər az nəzərə alır. Çünki Ramusun yazmış olduğu əsərlər sadəcə elmi metodların deyil, həm də dövrünün ideoloji və dini transformasiyalarının təsiri altında formalaşmışdır.

**4.Peter Ramusun Aristotel düşüncəsinə olan tənqidləri**

Onun orta əsrlərdə məşhurlaşmasına səbəb olan mühüm fəaliyyətlərindən biri Aristotel fəlsəfəsinə, xüsusilə də, onun məntiq sisteminə qarşı çıxması idi. Reformasiya dövründə belə hərəkatların olması qeyri-adi hadisə deyildi. Ramus, müasiri olan C.T. Freyqiusun vermiş olduğu məlumatlara əsasən, 1536-cı ildə Paris Universitetində işlətmiş olduğu "*Aristotelin hər dediyi şey yalandır*" [Graves, 1912, s.26] ifadəsi onun karyerasına zərbə vuraraq sərt reaksiyalarla qarşılaşmasına səbəb olmuşdur. Ramusun bu cəsarətli bəyanatı, fikrimizcə, onun təkcə Aristoteli deyil, bütövlükdə avtoritar bilik sistemini hədəf almasının göstəricisi idi. Onun məqsədi Aristotelin şəxsini deyil, onun adına qurulmuş mexaniki düşüncə modelini sarsıtmaq idi. Ramusun bu təşəbbüsü, onun Aristotel məntiqini obyektiv düşüncə və yaradıcı idrakdan uzaq, mexaniki bir sistem kimi qiymətləndirdiyi üçün baş tutmuşdu. Bu tənqidin kökü yalnız fəlsəfi narazılıqda deyil, həm də o dövrün universitetlərində tətbiq edilən tədris praktikasında idi.

Bu dövrdə bir çox filosoflar kimi, Ramus da orta əsrlər təhsil sisteminin köhnəlmiş üsullarına qarşı çıxaraq düşüncəyə fərqli bir istiqamət verməyə çalışmışdır. O, həm filosof, həm pedaqoq, həm də metodoloq kimi fəaliyyət göstərərək, Aristotel fəlsəfəsinin o dövr Avropa universitetlərində hökm sürən avtoritar tədris sistemini tənqid etmişdi. Ramusun fikrincə, "*Orqanon*" adlanan külliyyatdan idrak və tədris üçün deyil, daha çox formalist disputlar üçün istifadə edilirdi. Bu formalizmin ən bariz nümunəsi isə Aristotelin sillogizm strukturu idi. Aristotel məntiq haqqında yazmış olduğu külliyatda sillogizm sistemini məntiqin əsas strukturu kimi qeyd etmişdir. Belə ki, bu sistem ümumi prinsiplərdən xüsusi nəticələrə doğru gedən məntiqi əlaqələri izah edir. "*Sillogizm elə bir düşünmə formasıdır ki, bəzi müddəalar verildikdə, onların belə olmasından zəruri şəkildə onlardan fərqli olan başqa bir nəticə çıxır*" [Aristotle, 1991, s.60]. Ramusun məhz sadələşdirməyə çalışdığı sistem də elə bu idi. Hesab etmək olar ki, Ramusun bu sistemə yönəltdiyi tənqid metodoloji mahiyyət daşıyırdı. O, Aristotelin məntiqini tamamilə rədd etmirdi, sadəcə onu reallıqdan uzaq və təcrübə ilə zəif əlaqələndirilmiş hesab edirdi. Ramus bu sistemi "sadələşdirməyə" çalışmaqla bilik istehsalını daha praktik hala gətirmək istəyirdi. Ona görə bu sistem, tələbələrin təfəkkürünü inkişaf etdirmək əvəzinə onları süni mübahisə qaydalarına alışdırırdı. "*Sadəcə formal bir sistem olan, məzmundan uzaq, cansız və gənc zehinlər üçün olduqca çətin idi*" [Graves, 1912, s.142-143]. Ramus tələbələrin bu vəziyyətini "*zehni fəaliyyətin donması*" kimi qiymətləndirirdi. Onun fikrincə, Aristotel məntiqi çox vaxt "düşünmək" üçün deyil, "haqlı çıxmaq" üçün işlədilirdi. Bu səbəbdən o, məntiqin məqsədini düşüncəni asanlaşdırmaq, həqiqətə yaxınlaşdırmaq və aydınlaşdırmaq olduğunu ön plana çəkirdi.

Ramus üçün Aristotel yalnız bir filosof deyil, düşüncə azadlığını məhdudlaşdıran simvol kimi çıxış edirdi. Məhz intibah dövründə ortaya çıxmış humanizmin əsas məqsədlərindən biri düşüncə azadlığının formalaşdırılması və insanlara əlçatanlığı məhdud olmayan bir bilik sisteminə çıxışlarının təmin edilməsi idi. Beləliklə, Ramus üçün problem yalnız məntiqin quruluşunda deyil, bu quruluşun insan düşüncəsini məhdudlaşdırmasında

idi. Orta əsrlərdə elmin hər bir sahəsi məsələn, fizika, metafizika, məntiq və hətta ritorika belə, Aristotelin təliminin üzərində qurulmuşdu. Bu baxımdan, Ramus bu sahələri məhdud hesab edirdi. Ona görə, bu sistem artıq öz dövrü üçün tükənmiş və "doqmatik avtoritet"ə çevrilmişdi. Qeyd edirdi ki, Aristotelin təlimi insan ağlını məhdudlaşdırır. Çünki hər bir fikri əvvəlcədən müəyyən edilmiş çərçivəyə salır. Beləliklə, o, "ağlın təbiiliyi"ni və "fikrin sərbəstliyi"ni zədələyir [Graves, 1912 s.19-25]. Ramusun bu fikri reformasiya dövrünün intellektual ruhuna uyğun gəlir. Çünki bu, intibah humanizminin əsas prinsipi olan "insan ağlının öz gücünə inam" ideyasına uyğunluq göstərir. Bu səbəbdən Ramusun tənqidi həm də sosial-intellektual xarakter daşıyırdı. "*İnsanın biliyi və gücü bir-birinə bərabərdir*" [Bacon, 1620, s.11].

Ramusun məqsədi ilə bağlı yazmaq olar ki, "*Cəmiyyəti orta əsrlərin avtoritet asılılığından azad etmək onun məqsədi idi*" [Graves, 1912, s.204]. Bu ifadə Ramusun bütün fəaliyyətinin fəlsəfi şüarına çevrilə bilər. O, tənqidçi kimi yox, azad düşüncə qurucusu kimi çıxış etmişdi. Onun məqsədi sadəcə məntiq sistemini dəyişmək yox, həm də bütövlükdə idrak sistemini yeniləmək idi. Belə bir nəticəyə gəlmək olar ki, Ramus üçün düşüncə prosesi məntiqin formal çərçivəsindən kənara çıxmalı və təcrübəyə əsaslanmalı idi. Ramusun tənqidlərinin əsas hədəfi olan Aristotelin kateqoriyalar sistemi və sillogistik məntiqi, həyatın və təcrübənin reallıqlarından uzaq idi. O, məntiqi praktik və universal düşüncə aləti kimi yenidən qurmağa cəhd göstərdi. Onun təklif etdiyi Ramist məntiq sistemi anlayışların daha asan başa düşülməsini və tətbiqini təmin edirdi. O, həmçinin, məntiqi riyaziyyatın strukturuna bənzər şəkildə qurmaqla, düşüncənin "hesablana bilən" və sistemli bir proses olduğunu müdafiə edirdi [Graves, 1912, s.26]. "*Ramus üçün məntiq insan biliyinin normativ qanunlarının elmi deyildi. O, onu sadəcə bir məsələni mübahisə etməyin praktik sənəti hesab edirdi*" [Graves, 1912, s.154]. Ramusun təhsil və elm fəlsəfəsində ən mühüm ideyalardan biri, təfəkkürün sadəliyi və faydalılığı idi. Onun fikrincə, bilik yalnız abstrakt ideyaların toplusu deyil, həm də praktik həyatla əlaqəli fəaliyyət forması olmalıdır. Aristotelin mürəkkəb terminologiyasına qarşı çıxaraq, Ramus "dil aydınlığı" prinsipini irəli sürmüşdü. O, müəllimlərin və alimlərin fikirlərini qəliz terminlərlə gizlətməsini deyil, düşüncəni sadə, lakin dərin şəkildə ifadə etməyi tələb edirdi [Graves, 1912, s.26, 154-155]. Fikrimizcə, Ramusun ən orjinal ideyalarından biri ola bilər. O, elmin məqsədini terminoloji dərinlikdə deyil, idrakın sadə və səmərəli ifadəsində görürdü. Onun "dilin sadəliyi düşüncənin aydınlığıdır" prinsipi həm humanist, həm də modernist ruh daşıyır. Çünki o, elmi kommunikasiya anlayışını insan mərkəzli hala gətirir. "*Anlamamağımızın əsas səbəblərindən biri sözlərimizin istifadəsinə aydın baxışımızın olmamasıdır*" [Wittgenstein, 1953, s.122].

Eynilə, L.Vitqenşteyn "*Fəlsəfi tədqiqatlar*" əsərində qeyd edirdi ki, dilin mənası, onun istifadəsi ilə müəyyən olunmalıdır ki, hər şey aydın olsun. "*Bir sözün mənası onun dildə istifadəsidir*" [Wittgenstein, 1953, s.20]. O, göstərirdi ki, dil sadəcə simvollardan təşkil olunmayacaq qədər dərin məna kəsb edir. Bunun əsasında duran isə dilin sosial və mədəni fenomen olmasıdır. Nəticə etibarilə, hər iki filosof üçün dil düşüncənin formasıdır, sadəcə biri bunu intibah humanizmi çərçivəsində, digəri isə analitik fəlsəfə müstəvisində ifadə etmişdir. Bu əlaqə, Ramusun müasir fəlsəfəyə dolayı təsirini göstərir.

Müasir fəlsəfə kontekstində Peter Ramusun ideyaları yalnız məntiq və ritorika ilə məhdudlaşmırdı. O, həmçinin pedaqoji islahatçı kimi çıxış edərək universitet sisteminin dəyişdirilməsini təklif edirdi. Onun fikrincə, orta əsr universitetlərində elmlərin tədrisi mexaniki idi. Yəni tələbələr mübahisə qaydalarını əzbərləyir, lakin anlayışların mənasını dərk etmirdilər. Ramus tədrisin məqsədinin idrakı inkişaf etdirmək və ağlın müstəqilliyini formalaşdırmaq olduğunu vurğulayırdı. Bu mənada o, müasir təhsil sisteminin banilərindən biri sayılır. Ramusun Aristotelçiliyə qarşı çıxışı həm də humanist düşüncə ilə sıx bağlı idi. O, insan ağlının və yaradıcılıq qabiliyyətinin ali dəyər olduğunu bildirirdi. İntibah dövrünün

reformistlərinin əsas qayəsi də bu ali dəyərə nail olmaq olmuşdur. Humanizmin təsiri altında Ramus inanırdı ki, insan təbiəti etibarilə düşünmə və anlama gücünə malikdir. Bu gücü hansısa Aristotel kimi avtoritet deyil, yalnız təcrübə və rasional düşüncə istiqamətləndirə bilər. Bu baxımdan, o, həm humanistlər, həm də erkən reformatorlar üçün ilham mənbəyinə çevrilmişdi [Graves, 1912, s.140-144]. Ramus burada sadəcə bir filosof kimi yox, həm də sosial islahatçı kimi çıxış edir. Onun tədrisdə məqsədi "yadda saxlamaq"dan "anlamağa keçid" idi. Ramusun fikirləri o dövrdə birmənalı qarşılanmadı. Paris universitetində onun Aristotelə qarşı çıxışı ciddi mübahisələr doğurdu, bəzi akademik dairələr onu "bidətçi" adlandırdı. Lakin zaman keçdikcə onun ideyaları Avropanın müxtəlif universitetlərinə yayıldı və xüsusilə də İngiltərə, Almaniya və İsveçdə müasir tədris metodlarının əsasını qoydu. Onun sistemindən təsirlənənlər arasında Frensis Bekon (1561-1626) və Rene Dekart (1596-1650) kimi filosoflar da vardı. Onlar da elmin yalnız mübahisə deyil, metod və müşahidə üzərində qurulmalı olduğunu irəli sürürdülər [Graves, 1912, s.217-218].

F. Bekon özünün "*Novum Organum*" adlı əsərində təbiət hadisələri, oradakı qanunauyğunluqları müşahidə edən və bunun nəticəsində təcrübə ilə bilik əldə etməyə çalışan metodun əsasını qoymuşdur. "*Həqiqəti araşdırmaq və kəşf etmək üçün iki yol vardır. Onlardan biri hissələrdən və konkret müşahidələrdən tələsik şəkildə ən ümumi aksiomlara keçir...Digəri isə hissələrdən və konkret müşahidələrdən başlayaraq, davamlı və tədricən yüksəlməklə ən ümumi aksiomlara çatır. Bu, doğru, lakin hələ sınaqdan keçirilməmiş yoldur*" [Bacon, 1620, s.15]. Bu metod induktiv nəticə çıxarmaya əsaslanan metod olmuşdur. Bununla yanaşı, F. Bekonun idrakın möhkəmləndirilməsi üçün təcrübəyə əsaslanan metod axtarışına bənzər şəkildə, R. Dekart da bilik əldə etmənin daha etibarlı və əsaslandırılmış yolunu müəyyənləşdirməyə çalışmışdır.

Bununla bağlı R. Dekart, şübhəyə əsaslanan metodu irəli sürmüşdür. O, qeyd edirdi ki, hər şeydən şübhəsiz bilik əldə edənə kimi şübhə etmək lazımdır. "*Mənəm - mən mövcudam; bu, qətidir. Amma nə qədər tez-tez? Düşündüyüm qədər*" [Descartes, 1912, s.89-91]. Beləliklə də o, şübhə metodunun nəticəsi kimi yalnız düşünən varlığın (subyektin) şübhəsiz şəkildə mövcud olduğunu əsaslandırmışdır.

Beləliklə, Ramusun metodoloji və pedaqoji islahatlarının təsiri yalnız Ramizm sistemi ilə məhdudlaşmamış, R. Dekartdan başqa, A. Melville kimi mütəfəkkirlərin də düşüncə dünyasında öz əksini tapmışdır. O, da Ramus kimi Aristotelin mürəkkəb məntiq sisteminə qarşı çıxmış və onun sadələşdirilməsinin tərəfdarı olmuşdur. Onun fəaliyyətinin də bir parçası olan islahatları metafizikanın tədrisinin əleyhinə olmuşdur. Digər tərəfdən, dilin qüdrətindən bəhs etmiş və qədim dillərin də tədrisini əhatə edən fəlsəfə səviyyəsinə qaldıra bilmişdir. "*Ramusun sadə üsulları, öyrənməyə köməkçi vasitə kimi mnemonikadan ( redak. Ritmik ifadələr və vizual xatırlatmalar kimi yaddaşı gücləndirən üsullar və strategiyalar) istifadəsi bütün elmlərə, dillərə və fəlsəfəyə tətbiq olunurdu*" [Wormald, 2018, s.217]. A. Melville nümunəsi Ramusun ideyalarının Avropada yayılma miqyasını göstərir. Fikrimizcə, burada vurğulanan "dilin fəlsəfi səviyyəyə qaldırılması" prinsipi Ramusun "aydın bilik" anlayışı ilə ideya baxımından uyğunluq təşkil edir.

Beləliklə, Peter Ramus Aristoteliçiliyə qarşı çıxmaqla təkcə bir fəlsəfi sistemə etiraz etmirdi. O, bütöv bir düşüncə mədəniyyətini dəyişdirmək istəyirdi. Onun islahatçı baxışları Avropa təhsilində humanist və rasional düşüncə tərzinin bərqərar olmasına səbəb oldu. Bu mənada, Ramusun fəaliyyəti sadəcə bir filosofun mübahisəsi deyil, ağlın azadlığı uğrunda intellektual inqilab idi. O məntiqi sadələşdirməklə onu yenidən düşünmənin və idrakın əsas alətinə çevirdi. Ramus öz dövründə Aristotelin avtoritetini sarsıtsa da, bununla bəşər düşüncəsinin sərhədlərini genişləndirdi və bu, onun adını Avropa elmi-fəlsəfi tarixində silinməz etdi.

 

**5.Nəticə**

Peter Ramusun intellektual və yaradıcı irsi təkcə onun humanizm fəlsəfəsinə vermiş olduğu töhfələrlə də məhdudlaşmır. O, tənqidlərə məruz qalıb, ona qarşı düşmən münasibətlər bəslənməsinə baxmayaraq, öz qayəsindən geri dönməmiş və məqsədini həyata keçirməyə çalışmışdır. Aristotel məntiqinin sərt və mürəkkəb struktura malik olmasını sual altına alaraq, analitik bir çərçivədən yanaşmış və öz metodikasını yaratmışdır. Bunun əsas səbəbi isə onun Aristotel məntiqinin real həyatda tətbiqinin əsassız olduğunu düşünməsi olmuşdur. Onun Aristotel məntiqinə qarşı çıxışı, əslində, elmi və fəlsəfi düşüncənin azadlaşdırılması istiqamətində bir inqilab idi. Onun ritorika və təhsilin səmərəliliyi barəsindəki islahatları təkcə biliklərin əldə edilib öyrənilməsini asanlaşdırmamış, eyni zamanda, tələbə və müəlimlərin tənqidi düşüncə bacarıqlarının inkişafında mühüm rol oynamışdır. Belə nəticəyə gəlmək olar ki, həqiqi bilik əldə etmək dilin, məntiqin və metodun harmoniyası ilə mümkün olur. O, elmin tədrisində sadəlik, ardıcıllıq və təcrübi düşüncə prinsipini əsas tutaraq müasir universitet modelinin nəzəri bazasını hazırlamışdır. Onun "üsullaşdırma" ideyası sonralar F. Bekonun induktiv metodunda və R. Dekartın analitik düşüncə sistemində inkişaf etdirilmişdir. Ramus fəlsəfi yaradıcılığında dilin sadəliyini yalnız üslubi deyil, həm də fəlsəfi dəyər kimi görürdü. Başqa sözlə, dilin təmizliyi düşüncənin dəqiqliyinə bərabər tutulurdu. L. Vitqenşteyn kimi filosofların sonrakı əsərlərində bu prinsipin daha sistemli şəkildə ifadə olunması Ramusun ideyalarının zamanlararası təsirini göstərir.

Təhsil barəsində əsasını qoymuş olduğu yeniliklər daha sonralar Avropa məktəb-universitetlərində uzun müddət öz təsirini göstərmişdir. Bütün bu fəaliyyətlərindən görmək mümkündür ki, mövcud ənənələrə qarşı çıxmaq heç də həmişə mənfi nəticələrlə sonlanmır. Bəzən bu fəaliyyət yeniliklərin meydana gəlməsi üçün bir açar rolunu oynayır.

**5.REFERENCES**

1. Aristotle. (1912). *Organon* (R. B. Johns, Trans.). Cambridge, MA: Harvard University Press, 434 p. (in English)
2. Bacon, F. (1902). *Novum Organum* (Joseph Devey, M.A., Trans.). London: P. F. Collier and Son, 296 p. (in English)
3. Descartes, R. (1912). *Discourse on the Method* (John Veitch, LL.D., Trans.). London: Open Court Publishing, 294 p. (in English)
4. Graves, F. P. (1912). *Peter Ramus and the Educational Reformation of the Sixteenth Century*. New York: Macmillan, 258 p. (in English)
5. Lamont, C. (1957). *The Philosophy of Humanism* (4th ed.). New York: Philosophical Library, 253 p. (in English)
6. Ong, W. J. (2004). *Ramus, Method, and the Decay of Dialogue: From the Art of Discourse to the Art of Reason*. Chicago & London: The University of Chicago Press, 440 p. (in English)
7. Peter Ramus. (n.d.). *Stanford Encyclopedia of Philosophy*. Retrieved from https://plato.stanford.edu/entries/ramus/ (in English)
8. Raghuvashi, A., & Chand, D. K. (2024). Humanism in French literature in the 16th century. *Educational Administration: Theory and Practice*. (in English)
9. Wittgenstein, L. (1953). *Philosophical Investigations* (G. E. M. Anscombe, Trans.). Oxford: Blackwell, 250 p. (in English)
10. Wormald, J., Court, K., & Community. (2018). *Court, Kirk, and Community: Scotland, 1470–1625*. Edinburgh University Press, 280 p. (in English)

**ƏDƏBİYYAT**

1. Aristotle. (1912). *Organon* (R. B. Johns, Trans.). Cambridge, MA: Harvard University Press, 434 s.

**2.** Bacon, F. (1902). *Novum Organum* (Joseph Devey, M.A., Trans.). London: P. F. Collier and Son, 296 s.
**3.** Descartes, R. (1912). *Discourse on the Method* (John Veitch, LL.D., Trans.). London: Open Court Publishing, 294 s.
**4.** Graves, F. P. (1912). *Peter Ramus and the Educational Reformation of the Sixteenth Century*. New York: Macmillan, 258 s.
**5.** Lamont, C. (1957). *The Philosophy of Humanism* (4th ed.). New York: Philosophical Library, 253 s.
**6.** Ong, W. J. (2004). *Ramus, Method, and the Decay of Dialogue: From the Art of Discourse to the Art of Reason*. Chicago & London: The University of Chicago Press, 440 s.
**7.** Peter Ramus. (n.d.). *Stanford Encyclopedia of Philosophy*. Retrieved from https://plato.stanford.edu/entries/ramus/
**8.** Raghuvashi, A., & Chand, D. K. (2024). Humanism in French literature in the 16th century. *Educational Administration: Theory and Practice*.
**9.** Wittgenstein, L. (1953). *Philosophical Investigations* (G. E. M. Anscombe, Trans.). Oxford: Blackwell, 250 s.
**10.** Wormald, J., Court, K., & Community. (2018). *Court, Kirk, and Community: Scotland, 1470–1625*. Edinburgh University Press, 280 s.